**Fuad Cəfərli**



## Dadaist şeir

Bir sarışın qadın,
bir qaradinməz piano,
birdə mən.
Heç birinnən...
Yəni, nə pianonu düz-əməlli dindirdim -
hərçənd, unutsam da adını -
nədə o qadını...

Doğrusu,
sarışını uydurdum,
pianomsa əzəldən olmayıb.
Deyirlər,
zəncilərin orda da bəxti gətirməyib
yenə bəyazlar qalib gəlib...

**2017**

## Yorğun körpülər

Hər nə qədər zəhərli olsa belə
Sonra siqaret yandırdım
Qaranlıqlar tənha qalmasın deyə...
Fəqət, bu bir məsum istəyiymiş, sən demə.

Sən demə, qaranlıqlar çoxdan quruyub qan içində
körpülərisə yorulub yellənmir daha intihar ipində.
Mənisə bir sonsuzluq qədər gecikmişəm...

Torpaqların boyu damlalardan,
güzgülərin təmizliyi isə ona baxan
tanrılardan asılıdı.
Əvvələr cansız olsa belə,
birinci şəkillər, sonra çərçivələr gəlirdilər.
İndi doğum evlərində uşaq yox, çərçivələr bələyirlər.

Bilirsiniz, dünənin ədəbi tərcüməsi xatirədir.
Xatirələr isə şirin olsa belə səhvlərə bənzəyir -
Hər zaman kədərlidi.
Demokratlar, meritokratlar,
texnokratlar, aristokratlar -
hamınız sırayla gecikmisiniz.
Çün Günəşə gedən yol qarışqa olmaqdan keçirdi.
Sizsə ayaqlarınızdan üz çevirmişdiniz
hərçənd, ayaqlarınız hər dəfə ilk sizə baxırdı.

**2016**